BİRİNCİ TÜRKOLOJİ QURULTAYDA ORTAQ TERMİNOLOJİ SİSTEMİN YARANMA MƏNBƏLƏRİ

Sayalı Sadıqova
AMEA, Nəsimi adına Dilçilik İnstitutu,
Terminologiya şöbəsinin müdiri
filologiya elmləri doktoru, professor
sayalisadigova@yahoo.com
+994503357364

Xülasə

XX əsrin əvvəllərində elmin və mədəniyyətin inkişafı ilə bağlı yaranan anlayışların ifadəsi əsas problemlərdən biri kimi diqqəti cəlb edirdi. Türk xalqları arasında iqtisadi, siyasi, diplomatik əlaqələr ilə yanaşı, onlar arasında dil kontaktlarının da genişləndirməsi, dillərinin funksional inkişafında baş verən dəyişikliklər birbaşa onun terminologiyasına təsir edirdi. Ona görə də türk xalqlarının bir-birini başa düşməsi, onlar arasında ortaq elmi dilin formalaşdırılması dövrün tələbi idi. Bu nəzərə alınaraq B.Çobanzadə türk dillərində elmi dilin yaxınlaşması üçün ortaq termin yaradıcılığı prosesində əsas mənbələri müəyyənləşdirmişdir. Ümumtürk bazasından ayrılan türk xalqları, təbii ki, sonrakı dövrlərdə ayrı-ayrı dillərin və mədəniyyətlərin təsiri ilə yeni anlayışları başqa dillərdən almağa məcbur olmuşdur. Ona görə də ortaq terminoloji sistemin inkişafı üçün üç əsas mənbə müəyyənləşdirilmişdir: türk dillərinin hər birinin sırf özünəməxsus terminləri, türk dilləri üçün ortaq olan terminlər və başqa dillərdən alınan terminlər. Bu mənbələr ortaq terminlərin yaranmasında əsas mənbə hesab edilmişdir.

Türkoloji qurultaydan sonra türk dillərində terminologiya ilə bağlı tədqiqatlar müxtəlif aspektlərdən aparılmışdır. Elmlərin diferensiasiyası və inteqrasiyası, informasiya mübadiləsinin sürətlənməsi, reterminləşmə və determinləşmə yeni elmi istiqamətlərdə terminlərin işlənmə xüsusiyyətlərinin dərindən öyrənilməsi tələbatını artırmış, terminologiya sahəsində işlərə xüsusi diqqət verilməsinə səbəb olmuşdur. Yeni terminlərin yaradılması prosesinin ümumişlək sözlərin yaradılmasını üstələməsi, terminlərin ədəbi dilə və danışıq dilinə sürətlə nüfuz etməsi bu nüfuzetmənin xüsusiyyətlərini aydınlaşdırmağı tələb edir.

Açar sözlər: türk, termin, ortaq mənbə, reterminləşmə, dil əlaqələri.

SOURCES OF THE FORMATION OF A COMMON TERMINOLOGICAL SYSTEM AT THE FIRST TURKOLOGICAL CONGRESS

At the beginning of the twentieth century, the expression of newly emerging concepts resulting from the development of science and culture became one of the most pressing issues. Alongside economic, political, and diplomatic relations among Turkic peoples, the expansion of linguistic contacts and the changes occurring in the functional development of their languages had a direct impact on their terminological systems. Therefore, mutual intelligibility among Turkic peoples and the formation of a common scientific language emerged as a necessity of the period. Taking this into account, B. Chobanzade identified the principal sources of common term formation in the process of bringing scientific language closer across Turkic languages. Turkic peoples who had diverged from the Common Turkic base were naturally compelled in later periods to borrow new concepts from other languages due to the influence of different linguistic and cultural environments. Consequently, three main sources were identified for the development of a common terminological system: terms unique to each individual Turkic language, terms shared among Turkic languages, and terms borrowed from other languages. These sources were considered fundamental in the formation of common terminology.

After the Turkological Congress, research on terminology in Turkic languages was conducted from various perspectives. The differentiation and integration of sciences, the acceleration of information exchange, as well as the processes of reterminologization and determinologization, increased the need for an in-depth study of the functional characteristics of terms in emerging scientific fields. This, in turn, led to heightened scholarly attention to terminological studies.

The fact that the process of creating new terms has overlapped with the formation of commonly used vocabulary, and that terms have rapidly penetrated into both the literary language and everyday speech, necessitates a clarification of the specific features of this process of diffusion.

Keywords: Turkic, term, common source, reterminologization, language contacts

Dövrün tarixi epoxadakı problemlərini diqqət mərkəzinə çəkən Birinci Türkoloji Qurultayın keçirilməsi bütün türk xalqlarının mənəvi dəyərlərinin inkişafında, onların mədəni birliyinin yaranmasında, ədəbi dilin inkişafı tarixində, eləcə də türk dillərinin bir çox problemlərinin həllində mühüm hadisədir. XX əsrin əvvəllərində türk dillərinin inkişafında mühüm rolu olan əlifba, terminologiya, orfoqrafiya, tarix, ədəbiyyat, folklor, incəsənət, etnoqrafiya sahələrində problemlərin həllinə, mövcud vəziyyətə uyğun dillərin inkişaf etdirilməsi istiqamətinə mühüm baxışlar sistemi Qurultayda müzakirə obyekti olmuşdur. Türkoloji Qurultayda terminologiya sahəsində elmi müzakirələr aparılmış və terminlərin yaranmasının prinsip və qanunauyğunluqları müəyyənləşdirilmişdir.

Birinci Türkoloji Qurultayda türk dillərində terminlərin sistemli şəkildə inkişaf etdirilməsi dilçiliyin qarşısında duran əsas problemlərdən biri kimi müzakirə olunmuşdur. Termin yaradıcılığı prosesində ortaq terminlərin yaranması, ortaq elmi dilin olması tezis kimi irəli sürülmüşdür. Türk xalqları üçün ümumi elmi dil məsələsinin müzakirəsində vahid ədəbi dil tərəfdarlarının əsas məqsədi bugünkü türk xalqlarının bir-birini anlaması faktı idi. Ş. Akalın yazır: "Ortaq elmi dilin yaradılmasında əlifba, dil, ədəbiyyat çalışmalarının içərisində ən önəmli yeri terminlər tutmaqdadır. Avrasiyada bir-birinə qonşu ölkələrdə yaşayan Türk soylu xalqların qohumluqlarını, mədəni yaxınlıqlarını ortaya qoyan onların ortaq dəyər və dilləridir. Türk dünyası adlandırdığımız müstəqil türk cumhuriyyətlərində, muxtar respublikalarda və ya fərqli ölkələrdə, fərqli istiqamətlər altında yaşayan Türk soylu cəmiyyətləri birləşdirən bu dünyanın mədəni dəyərləri içərisində dilləri, xüsusi özəlliyi və söz varlığı baxımından böyük bənzərliklər göstərir" (Akalın, 2016, s.14).

Bəkir Çobanzadə qurultayda "Elmi terminologiyanın sistemi haqqında" məruzəsində türk xalqları üçün ortaq ədəbi dilin yaradılması probleminə tarixi faktlara söykənərək tutarlı elmi dəlillərlə aydınlıq gətirmişdir. Türk xalqlarının qarşılıqlı ünsiyyətini iqtisadi həyat və təhsil kompleksinin birliyində görürdü. Görkəmli alim elmi dilin yaxınlaşması üçün terminyaratmada əsas prinsipləri təyin etmiş və bunun üçün məktəb təliminə böyük əhəmiyyət vermişdir. Bu problemi real şəraitə uyğun olaraq həll etmək, beşik dili ilə elmi dil arasında, yerli ana dili ilə ümumi ədəbi dil arasında ziddiyyət yaratmamaq üçün inkişafın təbiiliyinə və tədriciliyinə ehtiyatla və diqqətlə yanaşmışdır. Qeyd edir ki, "ümumi və ya ortaq elmi dil, əlbəttə, yerli canlı danışıq dili deyil, bədii əsərlərin, bayatıların, laylaların dili deyil, kürsülərin və auditoriyaların dilidir, elmin və siyasətin dilidir, terminlərin, professionalların dilidir" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.180). Bununla elmi dillə bədii dilin fərqlərini verməklə yanaşı, ümumi və ortaq elmi dilin sərhədlərini müəyyənləşdirir. Hər bir türk dilinin elmi dilinin inkişafı üçün əsas şərtləri iki yerə ayırır: "1. Bütün türk xalqlarının zehni intellekti bir hazır dilə sığmaz, bu dil bütün türk soylarının intellektinin ümumiləşməsi olmalıdır - yeni, zəngin, hamısından yüksəkdə duran bir dil olmalıdır; 2. Mövcudlardan birini götürəndə başqa qardaşlarda ögeylik emosiyası dirçələ bilər" (Çobanzadə, 2015, s.205). Göründüyü kimi, elmi dilin formalaşmasında bütün türk dillərinin qarşılıqlı əlaqəsi, yəni elmi dilin əsasında bir dil deyil, ümumiləşmiş türk xalqlarının intellektinin ifadəsi əsas götürülür.

Türk dillərində ilkin dövrlərdə anlayışların ifadəsində eyni mənbədən istifadə olunmuş, lakin diferensiasiya prosesi ilə bağlı olaraq hər bir türk dövləti ümumtürk bazaya əsaslanmaq şərti ilə elmi-mədəni, sosial-siyasi, ictimai-iqtisadi və s. sahələrdə özlərinə məxsus istiqamətləri müəyyənləşdirilmişdir. Terminologiyanın yaradılması prosesində əsas amil olan ortaq mədəni abidələrdə işlənən türkdilli xalqların dil vahidlərinin müştərək iştirakının nəzərə alınması elmi dilin yaranmasında əsas mənbə hesab edilir. Türk dillərində vahid terminologiya sistemini yaratmaq üçün, termin yaradıcılığı prosesində türk xalqlarının dilinin vahid ailə kimi iştirakı, ortaq abidələrdə işlənən sözlərdən istifadə önə çəkilir. Bu proses türk dillərinin qohumluğunu əks etdirməklə yanaşı, onların monolit birliyini də təmin edir. B.Çobanzadənin açıq fikirləri türk dillərinin qarşılıqlı əlaqədə, vahid ailə kimi zənginləşmə istiqamətləri əslində türkləşmək, islamlaşmaq və müasirləşmək modelinin müdafiəsi idi. Terminoloji sistemin yaradılmasında ümumtürk, ərəb-fars və Avropa terminlərindən istifadəni vacib hesab edərək türkdilli xalqların mənəvi-ideoloji birliyini təmin etməyə çalışırdı.

Qeyd edir ki, ümumtürk bazasından ayrılan türk xalqları, təbii ki, ayrı-ayrı dillərin və mədəniyyətlərin təsiri ilə yeni anlayışları başqa dillərdən almağa məcbur olmuşdur. Daha çox milli dil olan qazax dilində yad, əcnəbi elementlərin olması və onların ahəng qanununa tabe olmaması da vurğulanır. Qeyd edilir ki, çuvaş və yakut dilində fars və Avropa dillərindən alınmalar üstünlük təşkil edir. Çuvaş və yakutların dilində fars və ərəb alınmalarının qədim bir tarixi olması və uzun müddət bu dillərdən sözlərin alınması şərh olunur. Əlişir Nəvainin, XV-XVI əsrin osmanlı klassiklərinin, Baki, Nəbi, Nadimnin dilini təhlil edərək göstərir ki, onların dilləri oxşardır və bizim üçün anlaşıqlıdır, bunun səbəbi isə terminologiyada ərəb və fars sözlərinin üstünlük təşkil etməsidir. Bəkir Çobanzadə türk dilində çağatay və osmanlı elementlərinin fərqliliyini müəyyənləşdirilməklə yanaşı, türk xalqlarının müəyyən dövrə qədər ortaq elmi və mədəni dəyərlərə malik olmasını, dillərinin oxşar olmasını əsaslandırır. R. Bayramov yazır: "Bizcə, Bəkir Çobanzadə burada türk xalqlarının elmi və mədəni həyatında baş verən diferensiasiya (ayrılma) prosesini nəzərdə tuturdu. Məlumdur ki, bütün türk xalqları müəyyən dövrə (XVI-XVII əsrlərə) qədər ortaq elmə və mədəniyyətə malik olmuşlar. Lakin həmin dövrdən onların həyatında diferensiasiya prosesi başlayır və artıq hər bir türk dövləti ümumtürk bazaya əsaslanmaq şərtilə elmi-mədəni, sosial-siyasi, ictimai-iqtisadi və s. sahələrdə özlərinə məxsus istiqmət müəyyənləşdirir. Bu proses Azərbaycan dilinə də təsirsiz ötüşmür. Ümumtürk bazasından ayrılan türk xalqları, təbii ki, ayrı-ayrı dillərin və mədəniyyətlərin təsirinə asanlıqla düşə bilir" (Bayramov, 2014,s.184).

Bunu nəzərə alaraq türk dillərində elmi terminoloji sistemin yaranmasında üç ümumi baza əsas tutulur: "Türk dillərinə keçərkən dedim ki, lüğətimiz üçün lüğət tərkibimizdə 3 ümumi baza var. Başqa məsələlərlə əlaqədar danışarkən türk dialektləri arasındakı mövcud fərqləri göstərsək də bunu türk dialektlərinin qarşılıqlı münasibətlərini, onlar arasındakı fərqləri müəyyənləşdirmək üçün etmişdik, lakin bu fərqlərdən başqa, külli miqdarda material, iqtibas edilmiş cəhət və xüsusiyyətlər də qalır ki, bunlar türk dialektləri arasında ümumi baza təşkil edir. Terminologiya tərtib edilərkən, bu baza nəzərə alınmalıdır. Bu ümumtürk bazasıdır" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.179).

Bununla da terminologiya probleminin ümumi mənzərəsini leksik-semantik struktur baxımdan təhlil edən B.Çobanzadə türk dillərinin lüğət tərkibində üç ümumi bazanın olduğunu diqqətə çatdırır. Ümumtürk söz bazasını başlıca mənbə hesab edir və yazır ki, türklər üçün anlaşmanın birinci səbəbi ümumtürk bazasıdır ki, buraya bütün türkcələrdə eynilə işlədilən (qismən fonetik fərqlər daxil olmaqla) sözlər daxildir. İkincisi, ərəb-fars bazasıdır ki, buraya türk ləhcələrində ortaq işlənmə tezliyinə malik olan alınmalar daxildir. Üçüncüsü, Avropa bazasıdır ki, ümumi anlayış və nəzəriyyələrin qəbul edilməsində bu baza mühüm rol oynayır (Nərimanoğlu, Ağakişiyev, 2006, s.179). Bu mənbələri ümumtürk ədəbi dilinin yaradılmasında əsas hesab edir və ortaq terminologiyanın yaranmasında bütün türkcələrin iştirakını zəruri və təbii hesab edir.

Türk dillərində termin yaradıcılığında ərəb və fars mənbələrinin rolunu xüsusi qeyd edir. Bəkir Çobanzadə ərəb-fars bazası əsasında yaranan terminlərin dilimizə gəlmə və formalaşma məsələsinə aydınlıq gətirməklə yanaşı, belə terminlərin dilimizə gələndən sonra törətdiyi

xətaları, dil normalarının pozulmasını da diqqətə çatdırır. "Sırf türk dilinə xas olan aqqlütinasiya, sinharmonizm bizdə ərəb, fars dillərindən alınmalarla pozulub. Dilimiz, bu alınmalar nəzərə alınmaqla, bütövlükdə təmiz türk dili deyil, odur ki, o, əsas aqqlütinasiya və ahəng qanunu tələblərinə də tam tabe olmur" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.180). Bəkir Çobanzadə termin yaradıcılığında üçüncü baza kimi Avropa ümumi bazasını göstərir və qeyd edir ki, "Terminologiya yaradarkən diqqət yetirməli olduğumuz üçüncü baza elmi anlayışlar, elmi nəzəriyyələr sahəsində ümumi istiqamət tutmağımız və bununla yanaşı, onların adlarının, terminlərinin Avropa tərzinə əsaslanmağımızdır" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.180).

Bu dövrdə termin yaradıcılığı prosesində hansı mənbələrdən istifadə olunması yolları müxtəlif cəhətdən izah edilirdi. Ziya Gökalp yazırdı ki, "Rusiyadakı türklər terminləri ruscadan, Çindəki türklər çincədən, biz fransızcadan alsaq, türklərimiz bir-birindən uzaqlaşar. Halbuki ərəbcə və əcəmcədən ya da türkcədən alsaq, tam əksinə bir-birlərinə yaxınlaşarlar" (Gökalp, 2010,s.24). B.Çobanzadə məruzəsində bu məsələlərə aydınlıq gətirmiş, Avropa xalqlarında termin yaradıcılığı prosesini və onların qarşılıqlı şəkildə inkişafını təhlil etmişdir. Avropa xalqlarında elmin inkişafı, yeni anlayışların yaranması, elmi dili formalaşmasına səbəb olmuşdur. Ümumtürk ədəbi dilinin inkişafı üçün bu sistemin yaranmasında Avropanın təcrübəsinə, onların dillərində işlənən terminoloji sistemə istinad edilməsini əsas yol hesab edirdi. Qeyd edir ki, Avropa xalqlarının terminologiya sahəsində qarşılıqlı münasibətlərinin əsasları göstərir ki, Avropa xalqlarının elmi dilində artıq çoxdan vahid elmi terminologiya formalaşıb, odur ki, istənilən sahənin mütəxəssisi başqa millətlərdən olan mütəxəssislərlə asanlıqla dil tapa bilir. Avropada terminlərin yaranmasında ortaq mənbələr olduğuna görə müxtəlif elm sahələrinin mütəxəssisləri bir-biri ilə asanlıqla dil tapa bilir: "Avropa terminologiyasını əhatə edən Avropa təhsili alan türk həkimi fransız, yaxud ingilis həkiminin də reseptini başa düşəcək. Dilçilik və digər elm sahələrində də eyni şeydir. Bu nəticələri doğuran əsaslar, fikrimcə, elmi sistemin vahidliyi, sxolastik dil-latın dilidir. Daha sonra, intibahın terminologiya baxımından əsasının ümumiliyidir" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.179).

B.Çobanzadə Avropa xalqlarının inkişafını, onlarda elmi terminologiyanın artıq vahid formada işlənib hazırlanmasını əsaslandırır və qeyd edir ki, ona görə də Avropada təhsil alan elm adamları bütün elm sahələrində bir-birlərinin yazdıqlarını anlayır. Termin yaradıcılığının vahid mənbədən, yəni latın əsaslı elmi terminlər sistemi əsasında formalaşdığına görə elm sahələri də sürətli inkişaf etmişdir. Alimin fikrincə, əlifba sistemində olduğu kimi, elmi terminologiyada da bir söz bir məna bildirməlidir. Bununla yanaşı, birpilləli məktəblərdə yerli ifadələrə, sözlərə üstünlük verilməsi, yəni, coğrafiya, riyaziyyat və s. sahələrdə ana dilində olan terminlərdən istifadə edilməsi əsas yol hesab edilir. Avropa xalqlarında vahid elmi terminologiyanın formalaşması və istənilən sahə ilə bağlı anlayışların nomenləşdirilməsində vahid mənbələr hesabına terminlərin yaranma yolları göstərilir. Qeyd edilir ki, Avropada latın dilinin elm dili kimi inkişafı başqa dillərin terminologiyasının formalaşmasında əsas mənbə olmasına səbəb olur. Bununla yanaşı "əlbəttə Avropa dilləri arasında sıx əlaqənin mövcudluğu bu dillərin vahid dil ailəsi olan hind-german dillər qrupuna aid olması ilə bağlıdır. Digər tərəfdən, Asiya tarixindən fərqli olaraq Avropa tarixinin bütövlüyü və vahidliyi terminoloji vəhdətin əsasını təşkil etmişdir". Avropa ilə Asiyanı müqayisə edir və Asiyada vəziyyətin tamamilə fərqli olması göstərilir. Asiya tarixinin ən mühüm dövrləri olan monqollar, hunlar, teymurilər və ya islamın genişlənməsi kimi hadisələrin bütün Asiyanı əhatə etməməsi əsaslandırılır. "Halbuki böyük Fransız inqilabı və ya bizim dövrümüzün inqilabı reformasiya və anti-reformasiya olduğu kimi bütün Avropa xalqlarını əhatə edir. Avropa xalqlarının sıx bağlılığı həm də iqtisadi əlaqələrlə şərtlənir. Bütün bunlar isə elmi-mədəni dilin vəhdətinə gətirib çıxarır" (Perviy..stenogram,s.192).

Asiya tarixinə nisbətən, Avropa tarixinin əlaqəli, bütöv şəkildə olması onun morfoloji baxımdan inkişafına böyük təsiri də başlıca səbəblərdən hesab edilir. Asiya tarixinin yaranmasında monqollar, hunlar, teymurilər, İslamın yayılması dövrü xüsusi qeyd edilsə də Avropa xalqlarının iqtisadi inkişafının onun elmi-mədəni dil ümumiliyinə, elmi terminologiyanın formalaşmasına təsiri də aydınlaşdırılır. Beynəlxalq terminlərin elektrik, konstitusiya, doktor,

beynəlmiləl, universitet terminlərinin macar dilində işlənməsi, eləcə də macar alimlərinin elmi materiallarını öz dillərinə tərcüməsi ilə terminologiyanın inkişafı da bu xalqların qarşılıqlı əlaqələrinin təsiri ilə yaranması əsas yollardan hesab edilir. Qeyd edir ki, A.Zifeldin ruhaniliklə bağlı sözləri tənqid etməsinə baxmayaraq dillərimizin bu mərhələyə çatmasında, bütün dillərdə olduğu kimi alınmalar alınıb özününküləşdirilmiş və dilləri inkişaf etdirmişdir. A.Babayev yazır: "B.Çobanzadə elmin bu və ya digər sahələri üçün beynəlxalq miqyasda işlənən sözləri almağı tövsiyə etməkdə heç də dilimizi başqa dillərin termin və ibarələri ilə doldurmaq, onu anlaşılmaz bir dərəcəyə gətirmək niyyətində deyildi. Bunu biz onun müxtəlif çıxış və məqalələrində də görə bilirik. O, həmişə dilimizi, istilah yaradarkən ən əsas baza kimi götürməyi tövsiyə edirdi" (Babayev,1996,s.150). Qeyd edir ki, hətta Çin sərhədində də heç bir xalq Şərqə yox, Qərbə üz tutur. Uzaq Şərqin türk tayfalarına təsir göstərə bilmək üçün, Yaponiya həddən artıq təcrid olunmuş bir dövlətdir. Yakutlardan başlamış üzü bəri biz Avropa mədəniyyəti, Avropa sivilizasiyasına istiqamətlənmə ilə üzləşirik. Bu da ümumi bazadır.

B.Çobanzadə terminlərin mahiyyətini və əhəmiyyətini elmi və pedaqoji cəhətdən yüksək qiymətləndirir. Elmlərin inkişafında, tədris prosesində terminin mahiyyətini müəyyənləşdirir və istilahların əhəmiyyətindən danışarkən yazırdı: "terminlər ikili əhəmiyyət kəsb edir: birincisi elmi, ikincisi isə pedaqoji əhəmiyyət. Terminlər olmadan məktəbdə dərs demək və ya elmi kitablar yazmaq mümkün deyil. Belə olduğuna görə bizim elmi inkişaf səviyyəmizi və mədəni şərtlərimizi nəzərə alaraq hələlik işin pedaqoji tərəfini əsas götürmək lazımdır" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.180).

Vahid terminoloji sistemin yaradılmasında məktəbin rolunu əsas götürərək qeyd edirdi ki, türk dilində tədris aparan ibtidai və orta məktəblərdə bu proses gedir və ona görə də "terminlərsiz məktəblərdə dərs deyə və elmi kitablar yaza bilmərik. Bunu qeyd etmək lazımdır və əgər belədirsə, hələlik terminləri yalnız elmi durumumuzu və mədəni şəraitimizi nəzərə alaraq işləyə bilərik, yalnız məsələnin pedaqoji tərəfinə toxuna bilərik, çünki artıq türk məktəblərinin məlum formalarına əsasən, II və I pillə məktəblərinə malik olmuşuq. Yəqin ki, bir neçə ildən sonra bizdə də III dərəcəli məktəblər, yəni ali məktəblər üçün terminlər yaratmaq zərurəti yaranacaqdır" (Nə rimanoğlu, Ağakişiyev, 2006, s.180).

Elmi dilin, eləcə də tədris prosesində terminlərin mahiyyəti açıqlanır. Xüsusilə, tədris prosesində fənnin tədrisində ortaq terminlərdən istifadənin pedaqoji əhəmiyyətini xüsusi qeyd edir: "Türk məktəblərində terminlərin tədrisi məsələsinə gəldikdə, məruzəçi rus, eləcə də Avropa məktəblərindəki təcrübənin tətbiq edilməsinin tərəfdarı kimi çıxış etmişdir. Belə ki, aşağı siniflərdə "sırf yerli terminlər" istifadə olunmalı, yuxarı siniflərə keçdikcə türk dilləri üçün ortaq olan terminlərə müraciət edilməlidir" (Cəfərov, Hüseynova, Qəribli, 2025).

Terminlərin elmi əhəmiyyətini səciyyələndirən alim fikrini belə izah edir: "...hər hansı bir tədqiq nəticəsində fərq olunan hadisə, əldə edilən nəticə, yaxud çıxarılan qanun bir söz vasitəsilə təsbit edilmədiyi, müəyyən bir ad almadığı təqdirdə, başqa onunla sınırdaş, ona yaxın hadisə və qanunlarla qarışmaq təhlükəsinə məruz qalır. Bu surətlə bir elmi əməliyyəni – istər hadisə, istər qanun olsun, təsbit etməklə ona ad vermək bir-birindən ayrılamaz. ...elmdə fikirlərin bir-birindən ayrılığı, bir-birinə qarşı olan münasibətləri nə qədər böyük əhəmiyyəti haizsə, ...istilahlar elmi dildə eyni əhəmiyyəti haizdir". Dillərin zənginlikləri və onların üslubi xüsusiyyətləri təhlil olunaraq yazılır ki, yunan və ərəb filoloqlarında olduğu kimi, indiyədək ən zəngin dil bir sözü on mənaya malik, yaxud əksinə, on sözü bir məna bildirən sözlər olan dillər sayılırdı. Əlişir Nəvai dünyası elə bircə " göy sözünün 5-6 mənaya malik olmasını türk dilinin məziyyəti sayır. Əksinə elə sözlər var ki, onların 10-u bir məna bildirir. Bunlar dilin sərvəti sayılan omonim və sinonimdir" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.181).

Türk dillərinin zənginliyi və onun leksikasını təşkil edən sözlərin məna çalarlarının da ortaq termin yaradıcılığında nəzərə alınması qeyd edilir. Elmi dilin inkişafı üçün hər bir anlayışın adlandırılmasını zəruri hesab edərək yazır ki, "hər bir səsə ayrıca bir hərfin müvafiq gəlməsini tələb edən əlifba prinsipi kimi, elmi terminologiya da hər bir anlayış qarşısında müvafiq bir ayrıca sözün dayanmasını və onların bir-birinə qarışmamasını istəyir" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.181).

Eyni zamanda yeni dilin yaradılma mexanizmində iqtisadi və təhsil faktorlarının mühüm yer tutduğunu da vurğulayır. B.Çobanzadə ümumtürk ədəbi dilinin yaradılmasında terminlərin tədrisi ilə bağlı 3 mərhələ müəyyənləşdirir və şərh edir: "Birinci dərəcəli (ibtidai) məktəblərdə yerli milli terminlərin işlənməsini; İkinci dərəcəli (orta) məktəblərdə ümumtürk terminlərindən istifadə olunmasını; Üçüncü dərəcəli (indiki ali) məktəblərdə həmin ümumi türk bazası əsasında beynəlxalq terminologiya sisteminə qoşulmağı tövsiyə edir" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.181).

Terminlərin bir məna daşıması onun əsas xüsusiyyəti hesab edilərək, terminlərin yaranmasında dilin daxili imkanlar hesabına yaranması önə çəkilir. Coğrafiya, riyaziyyat və s. dərsliklərində dilin öz terminlərindən istifadə edilməsi dili zənginləşdirən əsas mənbələrdən biri kimi şərh olunur. Qeyd edilir ki, bu, Rusiyada da belədir. Bunu İbrahimov Qazanda, Baytursun Qazaxıstanda, Odabaş isə Krımda tətbiq etmişlər. Azərbaycanda da Terminologiya Komissiyasında termin yaradıcılığında yerli dillərin sözlərinə və onların fonetik formasına, yəni tələffüz və morfologiyası əsas götürüldüyünü vurğulayır. Birinci pillədə rus məktəblərində rus terminlərindən, ikinci pillədə isə Avropa mənşəli terminlərdən istifadə edilməsi, yəni rus məktəblərində ilk dəfə rus terminologiyası ilə, gimnaziyada isə onların yerli dillərdə qarşılıqlarının yaranmasını təklif edir. A.Baytursunun irəli sürdüyü fikirlərə əsaslanaraq, təklif edir ki, türk dilləri qrup halında birləşərək terminologiya sistemlərini yaratsınlar. Məsələn, başqırd, qazax və özbək dialektləri, Azərbaycan və Osmanlı terminologiyası birlikdə götürülməlidir. Birinci mənbə kimi qonşu türk dillərinin sözlərini, ikinci mənbə kimi Qərbi-Avropa və rus dillərindən söz almağın mümkünlüyünü də qeyd edir. Bir şərtlə ki, söz əvvəlində diftonq olmasın və bütün alınmalar ahəng qanununa tabe etdirilsin. Türk xalqlarının birlikdə elmi terminologiysını hazırlamaq yolları göstərilir və Avropa mənşəli sözlərlə bağlı belə nəticəyə gəlinir ki, bütün türk dilləri bir mənbəyə əsaslanmalıdır. B.Çobanzadə ortaq terminlərin hansı mənbələr əsasında yaradılmasını da ortaq terminlərin formalaşmasında əsas şərtlərdən hesab etmişdir. Avropa bazasına münasibətini bildirir və qeyd edir ki, "bu məsələdə də bir mənbəyə istiqamətlənmək lazımdır: əgər yunan mənşəli sözlər qəbul edilirsə, onda bütün türk xalqları eynilə bu sözləri yunan formasında götürməlidir" (Nərimanoğlu, Ağakişiyev, 2006, s.181).

Ümumtürk milli dil yaratmaq üçün terminoloji bazanın formalaşmasını əsas hesab etmiş, purizm hadisəsini termin yaradıcılığında tənqid etmişdir. Bu illərdə başqa dillərdən sözlərin alınmaması və bütün anlayışların milli dil bazası əsasında yaradılması prinsipi əsas götürülmüşdür. Türk dillərində, eləcə də Azərbaycan ədəbi dilinə hazır terminlər almaq və başqa dillər hesabına dilləri zənginləşdirmək yanlış bir yol hesab edildiyi halda B.Çobanzadə bu sahədə düzgün mövqe tutmuşdur. O belə hesab edirdi ki, ərəb-fars dillərindən alınmış terminlərlə qarşılıqlı əlaqəni kəsməklə yanaşı, bu dillərdən alınmış termin və ifadələrdən ümumxalq leksikonuna daxil olmuş və vətəndaşlıq hüququ qazanmış olan sözlər saxlanılmalıdır. Bununla yanaşı ana dilində süni surətdə termin yaradılmasına qarşı çıxır və onların çox vaxt müvəffəqiyyətsiz olması və elmi-mədəni dildə qarışıqlıq yaratması şərh olunmuşdur. Beynəlxalq və Avropa terminlərinə qarşı istiqamət götürməklə texniki, ictimai-iqtisadi və tibb sahələrində yeni terminlərin yaranması və dilimizin qanunlarına uyğunlaşdırılması əsas yollardan hesab edilir. Xüsusilə, botanika, zoologiya və yerli xarakter daşıyan başqa sahələr üçün termin yaratmaqdan ötrü xalq leksikasını toplamaq və termin yaradıcılığında istifadə edilməsi önə çəkilir. Bu məsələlərin hər biri həmin dövrdə əhəmiyyətli məsələlərdən idi. Ərəb və fars sözlərinin hamısını dildən çıxartmaq kimi meyillərə qarşı çıxaraq qeyd edir ki, türk və ərəb və fars sözlərinə gəldikdə isə burada bir çox anlaşılmazlıq və çətinliklərdən asanlıqla xilas ola bilərik.

Deyilənlərlə bərabər, Bəkir Çobanzadə həmçinin ortaq terminologiyanın yaranması və sahənin nizamlanması və terminologiya problemlərinin aradan qaldırılması naminə təkliflər də verir. Qeyd edir ki, elmi dili işləyib hazırlayan və xüsusi ifadələrin mənasını qeydiyyata alan və s. işlər görən ümumtürk elmi-tərcümə bürosu yaratmaq zəruridir. Bu mərkəzdə müstəqil qurum olaraq, yəni Maarif Komissarlığına və ya digər inzibati orqana tabe olmadan Avropa ədəbiyyatı və terminologiyasını öyrənmək, türk dillərində elmi anlayışların ifadə olunmasının vahid üsulları araşdırılmalıdır. Bununla yanaşı "ümumi elmi dilimiz yoxdur, lakin bunun üçün baza mövcuddur.

Qazan, azərbaycanlı və osmanlı yazıçılar hansı dildə yazırlar? Dil təxminən eynidir-türk dilinin çığatay osmanlı şivəsi. Deməli, üslubu da yaxınlaşdırmaq olar. İkinci təklif isə elmi Türkoloji Komitənin yaradılması ilə bağlıdır. Bu komitə yerli terminoloji komitələrin təkliflərini nəzərə almalıdır. Yerlərdə-Tatarıstan, Azərbaycan, Türkiyə terminoloji komissiyalarının olmasını və lüğətlərin tərtib olunduğunu nəzərə alsaq bu daha da əhəmiyyətli görünür. Belə bir komitə yerli terminoloji komitələrin işlərini uzlaşdırardı" (Nərimanoğlu, Ağakişiyev, 2006,s.182).

Göründüyü kimi, ümumiyyətlə, türk dillərində ortaq elmi terminologiyanın hazırlanması üçün vahid rəhbərliyin olması fikri irəli sürülür. İnzibati orqan və ya Xalq Maarif Komissarlığının nəzdində ümumtürk elmi tərcümə bürosunun yaradılması və həmin idarə yerlərdəki işləri nizamlayaraq terminoloji plan və məsələləri razılaşdırılmış şəkildə ortaya çıxarılmasına nəzarətin edilməsi mühüm məsələ kimi qeyd edilir.

Beləliklə, Yerli komitələrin işinin qeydiyyatını apara bilən Elmi-türkoloji komitənin yaradılması zəruri hesab edilir. Qeyd edilir ki, Tatarıstan və Azərbaycanda, həmçinin Türkiyədə hazır şəkildə lüğətlər var. Komitə də müəyyən tapşırıqlar, planlar irəli sürərək yerli komitələrin işlərini əlaqələndirməklə vahid terminoloji sistemi inkişaf etdirməlidir. Bu gün də öz aktuallığını qoruyub saxlayan belə Komitənin yaradılması vacibdir. Yeni terminlərin yaradılması prosesinin ümumişlək sözlərin yaradılmasını üstələməsi, terminlərin ədəbi dilə və danışıq dilinə sürətlə nüfuz etməsi bu nüfuzetmənin xüsusiyyətlərini aydınlaşdırmağı tələb edir. Müasir dövrdə də türk dillərində ortaq terminologiyanın yaranmasında üç ümumi mənbə əsasdır: a) ümumtürk bazasıdır ki, buraya bütün türk dillərində işlədilən sözlər daxildir. b) İkincisi, hər bir türk dilinin daxili imkanları əsasında yaranan terminlər daxildir. c) Üçüncüsü, Avropa dilləridir ki, ümumi anlayışların yaranmasında bu baza mühüm rol oynayır. Bu mənbələr ortaq terminlərin yaranmasında əsas hesab edilməlidir. Müasir dövrdə türk dillərində termin yaradıcılığının daha çox dilin daxili imkanları və beynəlxalq dil zəminində getməsi ilə səciyyələnir.

Ədəbiyyat

1. Akalın Ş. (2025). 100 yılında 100 soruda Birinci Türkoloji Kurultayı. Ankara, Erkmen Yayımcılık.
2. Akalın Ş. Birinci Türkoloji Qurultayın 90 illiyində termin məsələlərinin bugünkü vəziyyəti və gələcəyi// Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar (I hissə), 2016, s.13-20
3. Babayev A.(1996). Azərbaycan dilçiliyi tarixi, Bakı, BDU nəşriyyatı.
4. Bayramov R. (2014). Bəkir Çobanzadə və terminologiya məsələsi.// Terminologiya məsələləri, №2, Bakı, Elm nəşriyyatı. s.182-188.
5. Cəfərov N., Hüseynova M., Qəribli A. I Türkoloji Qurultayda termin məsələsi, Ədəbiyyat qəzeti, 18 avqust 2025-ci il.
6. Çobanzadə B.(2006) Türk dillərinin terminoloji sistemi.// I Bakı Türkoloji Qurultayının stenoqramması. Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006.
7. Çobanzadə B.(2015) Türk ləhcələrinin yaxın qohumluğu haqqında.// Azərbaycan müntəxəbatı, I c. Bakı, Elm nəşriyyatı.
8. Gökalp Z. (2010). Türkleşmek, İslamlaşmak, Muasırlaşmak. İstanbul.
9. Nərimanoğlu K, Ağakişiyev Ə. (2006), 1926-cı il I Bakı Türkoloji Qurultayı stenoqramması. Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006.
10. Perviy Vsesoyuzniy Tyurkologicheskiy s'ezd, 26 fevralya – 5 marta 1926 g. (Stenograficheskiy otchet), Baku, 1926.